# Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib





Bu gün Beynəlxalq Muğam Mərkəzində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Prezidenti İlham Əliyevin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik məktubunu səsləndirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan elminin və mədəniyyətinin inkişafında, ictimai-siyasi sahədə xidmətləri olan bir qrup qadına Azərbaycan Prezidentinin təltiflərini təqdim edib.

H.Hüseynova qeyd edib ki, Azərbaycanda qadınlara hər zaman xüsusi münasibət olub. Ötən il keçirilmiş parlament seçkilərində qadınlar çox fəal iştirak ediblər. "Qadınlar çalışmalıdırlar ki, parlamentdə onların sayı daha da artsın. Azərbaycanda sahibkarlıqla məşğul olan qadınlar 19,4 faizdir. Qadın böyük qüvvədir. Bunu bugünkü tədbirimizdə ağbirçəklərimizin foyedə təqdim etdiyi əl işlərindən və uşaqların rəsmlərindən ibarət sərgidə də görə bilərik. Yaşlı nəslin nümayəndələri sənətləri ilə daxili güclərini nümayiş etdirirlər. Zəhmətləri ilə sübut edirlər ki, yaşından asılı olmayaraq, qadının ailədə və cəmiyyətdə öz yeri var və onlara qayğı göstərmək bizim hər birimizin borcudur. Bu insanlar özlərini həm ailənin, həm də cəmiyyətin bərabərhüquqlu üzvü kimi hiss etməlidirlər. Bu, çox mühüm məsələdir. Baxmayaraq ki, dövlət tərəfindən bütün həssas və risk qrupuna daxil olan vətəndaşlarımıza hərtərəfli diqqət göstərilir, onlar üçün imkanlar yaradılır. Lakin onların isti ocağa, öz övladlarının qayğısına ehtiyacları var. Biz bir daha bu sərgidə aktiv iştirak edən hər kəsə təşəkkür edirik",- deyə H.Hüseynova bildirib.

Komitə sədri qeyd edib ki, gender bərabəliyi və qadınların imkanlarının genişləndirilməsi inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur. Bu gün dünya ölkələrinin qarşısında dayanan əsas məqsədlərdən biri cəmiyyətin inkişafında qadınların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasıdır. BMT-nin 70 illik yubileyi çərçivəsində Nyu Yorkda keçirilən Zirvə toplantısında bütün dövlətlərin ölkə rəhbərləri öz çıxışlarında bu məsələlərin nə qədər vacib olduğunu vurğuladılar.

BMT-nin İnkişaf Proqramının ölkəmizdəki rezident əlaqələndirisi Ercan Murat isə çıxışında Azərbaycanda qadınların inkişafı ilə bağlı bir sıra uğurların əldə edildiyini, bununla yanaşı, problemlərin də olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, ölkədə hələ də erkən nikah halları müşahidə edilir. Bundan başqa, selektiv aborta qarşı mübarizə aparmalı, həmçinin ərləri tərəfindən tərk edilən qadınlar qorunmalıdırlar.

Daha sonra Milli Məclisin deputatları Aqiyə Naxçıvanlı və Hadi Rəcəbli çıxış ediblər. Sonra uşaq və ailələrə dəstək mərkəzlərində çalışan qadınlara mükafatlar təqdim olunub.

Tədbir konsert proqramı ilə davam etdirilib.

**AZƏRTAC**